# Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır

**Uzun illərdir ki, Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası geniş təşəkkül tapıb. Çünki Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınıb və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil edib. Milli Məclisin üzvü, deputat Tahir Süleymanov bildirir ki, cəmiyyətdə tarix boyu yaranan və insanların şüurunda formalaşan ictimai dəyərlər dövlətin inkişafına və güclənməsinə böyük təsir göstərir. Ölkəmizdə bu dəyərlərin məcmusu azərbaycançılıq ideyasıdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illər tariximizə ölkəmizin bütün həyati əhəmiyyətli sahələrində, o cümlədən sosial-iqtisadi, elmi-texniki və mədəni potensialın inkişafı, xalqımızda dövlətçilik və azərbaycançılıq ideyalarının yüksəldilməsi, dövlətimizin gələcək müstəqilliyinin təməlinin qoyulması, onun qorunması və daha da gücləndirilməsi dövrü kimi daxil olub.**

Millət vəkili xatırladır ki, ulu öndərimiz Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra respublikamızın müstəqilliyini möhkəmləndirməklə, onun siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, həmçinin Azərbaycan cəmiyyətinin inkişafının ideya təməli olan azərbaycançılıq konsepsiyasını irəli sürüb. Azərbaycançılığın bütün dünya azərbaycanlılarını birləşdirən ümummilli ideologiya halına gəlməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi Heydər Əliyevin tarixi xidmətidir: "1991-ci ildə Azərbaycan yenidən müstəqlliyini əldə etdikdən sonra azərbaycançılıq ideologiyası Ermənstanın işğalçılıq siyasətinə qarşı burada yaşayan bütün xalqları öz ətrafında birləşdirən möhkəm sipərə çevrildi. Bu müstəvidə də uzun illər Azərbaycana rəhbərlik edən Heydər Əliyev tərəfindən formalaşan azərbaycançılıq məfkurəsi yeni inkişaf mərhələsinə qaldırıldı. Ulu öndərimiz Heydər Əliyev Dünya Azərbaycanlılarının I Qurultayındakı nitqində azərbaycançılıq ideologiyasının dövlətçilik konsepsiyası və milli-mənəvi dəyərlərlə vəhdətdə olduğunu göstərdi. Bütün dünya azərbaycanlılarını birləşdirən əsas amillərin milli mənsubiyyətimiz, tarixi köklərimiz, milli-mənəvi dəyərlərimiz və milli mədəniyyətimizdən ibarət olduğunu nəzərə çatdıran ümummilli liderimiz Heydər Əliyev inamla bunları bildirdi: "Bizim hamımızı birləşdirən, məhz bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldən edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq - öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Millət vəkili qeyd edir ki, Ulu Öndərimiz milli ideologiyanın milli dövlətçilik və milli-mənəvi dəyərlər kimi iki başlıca komponentdən ibarət olduğunu diqqətə çatdırıb. Heydər Əliyevin üzərinə bir tərəfdən milli ideologiyanın məhz ümumbəşəri dəyərlər sistemi zəminində formalaşdırılması, digər tərəfdən də, dövlət və hüquq quruculuğu prosesində xarici təsirlərin milli ideologiya süzgəcindən keçirilməsi kimi ağır bir vəzifə düşürdü: "Ona görə də Ümummilli Liderimiz tərəfindən milli ideologiyamızın mükəmməl konsepsiyası işlənib hazırlandı. Müstəqil Azərbaycanın ümummilli ideologiyasına çevrilən azərbaycançılıq həm də dünyanın müxtəlif bölgələrinə səpələnən soydaşlarımızı öz ətrafında birləşdirən önəmli faktora çevrilib. Bir sözlə, azərbaycançılıq ideologiyası Azərbaycanda yaşayan bütün xalqları öz ətrafında birləşdirərək güclü və qüdrətli demokratik dövlət quruculuğuna öz töhfəsini verməkdədir".

Tanınmış pedaqoq və müəllim Ülkər Piriyeva isə deyir ki, Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib. Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri, onların Azərbaycana münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, habelə azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır: "Azərbaycançılıq millətindən asılı olmayaraq, özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir. Azərbaycançılığı şərtləndirən ən mühüm amillərdən biri də milli ənənədir. Deməli, azərbaycançılıq ideologiyası həm də xalqın tarixən tapındığı mütərəqqi ənənələri gələcək nəsillərə ötürən mənəvi körpüdür. Ali mənəvi dəyərlərə yüksək sədaqət, ana dilinə məhəbbət, bəşəri ideallara hörmət azərbaycançılığın milli mahiyyətini açmaqla yanaşı, onun humanist səciyyə daşıdığını göstərir. Azərbaycançılığın əsasında yer alan ünsiyyət birliyi isə vahid ana dilimiz vasitəsilə həyata keçirilir. Azərbaycan dili milliliyin ifadə vasitəsi olduğu üçün azərbaycançılıq ideologiyasının komponenti kimi çıxış edir. Azərbaycançılıq ideologiyası, bir tərəfdən, Azərbaycan türklərinin ölkədəki digər etnik qruplara tolerant münasibətinin, sülh içində yaşamaq istəyinin bariz göstəricisidirsə, digər yandan, Azərbaycanın türk dünyasının ayrılmaz parçası olduğunun təsdiqidir. Odur ki, azərbaycançılığı real milli inkişaf modeli olaraq qəbul edən Azərbaycan türk dövlətləri arasında da bələğət və pafosdan uzaq, səmimi və qarşılıqlı faydalı tərəfdaşlıqdan yana olduğunu daima nümayiş etdirir".

Filologiya elmləri doktoru, Əməkdar elm xadimi Hüseyn Həşimli yazır ki, Heydər Əliyevin bütöv bir sistem təşkil edən nəzəri irsində və siyasi fəaliyyətində önəmli yer tutan məsələlərdən biri də azərbaycançılıqdır. Dahi rəhbər müxtəlif məruzə, çıxış və nitqlərində bu məsələyə xüsusi diqqət yetirib, azərbaycançılığın elmi-nəzəri, siyasi-ideoloji prinsiplərini müəyyənləşdirib və əsaslandırıb, eyni zamanda bütün fəaliyyəti boyunca bu ideologiyanın hərtərəfli şəkildə gerçəkləşdirilməsi üçün ardıcıl, konseptual tədbirlər həyata keçirib. Ümummilli liderimizin respublikamıza rəhbərliyi dövründə azərbaycançılıq istiqamətində çox böyük, həm də qətiyyətli addımlar atılıb. Belə ki, Azərbaycan tarixinin, dilinin, ədəbiyyatının, mədəniyyətinin hərtərəfli şəkildə və dərindən öyrənilməsi, təbliği, gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi, milli şüurun dirçəlişi, ümumən, bütün sahələrdə azərbaycançılıq amalının möhkəm, etibarlı bazasının formalaşdırılması yönündə həyata keçirilən qətiyyətli tədbirlər məhz Ulu Öndərin parlaq dühası, ardıcıl səyləri sayəsində reallaşıb: "Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini elan etsə də, o zamankı rəhbərliyin yarıtmaz fəaliyyəti nəticəsində çox keçmədən ölkə nəinki istiqlalını, bütövlükdə, öz varlığını itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir taleyüklü məqamda xalqın təkidli tələbi ilə 1993-cü ildə respublikada yenidən siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev qısa müddətdə Azərbaycanı düşdüyü ağır vəziyyətdən qurtardı, bütün sahələrdə hüquqi-demokratik prinsiplərə əsaslanan idarəçiliyi, hərtərəfli inkişafı təmin etdi. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", - deyən görkəmli siyasi xadimin, böyük vətənpərvərin müstəqil dövlətimizə rəhbərlik etdiyi 1993-2003-cü illər həm də onun azərbaycançılıq təliminin möhtəşəm təntənəsi, həyati gücünün əzəmət və vüsətinin parlaq təzahürüdür. Belə ki, bu illərdə dahi rəhbərimiz tərəfindən azərbaycançılıq ideologiyasının əsas müddəaları, başlıca prinsipləri sistemli şəkildə işlənib hazırlanıb və cəmiyyət həyatının bütün sahələrində öz ifadəsini tapıb. "Bizim üçün bir tarixi amil - azərbaycançılıq ideologiyası var", - deyən görkəmli dövlət xadimi Heydər Əliyev bu təlimin prinsiplərindən, qarşıya qoyduğu vəzifələrdən bəhs edərkən ən vacib məqamı ayrıca vurğulayıb: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Hüseyn Həşimli qeyd edir ki, müstəqil Azərbaycanın siyasi-ideoloji strategiyasının əsasında dayanan və ulu öndərin böyük dühasının bəhrəsi olan azərbaycançılıq təlimi müstəqil dövlətimizin hərtərəfli inkişafının etibarlı təməlidir. Milli ideologiyamız olan azərbaycançılığı tarixilik və müasirlik kontekstində dəyərləndirən, ölkəmizin dünəni, bu günü və gələcəyi üçün əsas istiqamətverici təlim sayan, onun bütün xalq, müxtəlif siyasi qüvvələr üçün birlik vasitəsi olmasının vacibliyinə xüsusi önəm verən ulu öndər fikrini belə ümumiləşdirib: "Milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır. Bu ideologiya bütün xalqın, dövlətin mənafeyinə uyğun olmalı, müxtəlif sosial təbəqələrin, siyasi partiyaların bir ideya ətrafında birləşməsinə yol açmalıdır".

Hüseyn Həşimli həmçinin vurğulayır ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin azərbaycançılıq təliminin bir üstün cəhəti də ondadır ki, bu ideologiya milli-mənəvi dəyərlərə əsaslanmaqla, onları qoruyub yaşatmaqla, inkişaf etdirməklə yanaşı, bəşər sivilizasiyasının ən qabaqcıl nailiyyətlərindən də bəhrələnir, bu sintez isə, son nəticədə, hər bir vətəndaşın, bütövlükdə, ölkənin və xalqın yüksəlişini təmin edir: "Dahi rəhbərin sözləri ilə desək, azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq və hər bir insanın inkişafını təmin etməkdir. Ona görə də ölkəmizdə azərbaycançılıq təliminin prinsiplərinin ardıcıl və əhatəli şəkildə həyata keçirilməsi sahəsində Ulu Öndərin siyasi kursuna dönmədən əməl olunur. Bu da Vətənimizin və xalqımızın hərtərəfli yüksəlişinə xidmət edir".

**Müşfiq CƏFƏROV,**
**"Respublika".**

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.*

# Cəmiyyətdə gənclərin fəallığının artırılması